**Respublika.** - 2024.- 2 oktyabr. - № 215. - S. 8.

# Bakı İqlim Fəaliyyəti Həftəsi davam edir

**Aygün İbrahimova**

**Oktyabrın 1-də Heydər Əliyev Mərkəzində keçirilən Bakı İqlim Fəaliyyəti Həftəsinin ikinci günü panel müzakirələr və "Ədalətli keçid tərəfdaşlığı və investisiyaların stimullaşdırılması" mövzusunda dəyirmi masa ilə yadda qalıb.**

Tədbirdə çıxış edən Azərbaycanın ekologiya və təbii sərvətlər naziri, COP29-un prezidenti Muxtar Babayev təkcə bu il iqlim dəyişmələrinin su və kənd təsərrüfatına mənfi təsirləri və səbəb olduğu fəlakətlərlə bağlı çoxlu nümunələrin olduğunu bəyan edib. Onun fikrincə, əgər qabaqlayıcı tədbirlər görülməsə, bunun təsirləri bütün dünyada normaya çevrilə, iqlim dəyişmələri quraqlıqların 100 dəfə daha tez yaranmasına səbəb ola bilər. "Proqnozlara əsasən, qlobal temperaturun 2 dərəcə artması daha 200 milyon insanı aclığa sürükləyəcək. Su və kənd təsərrüfatı sistemləri ilə bağlı gərginliklər artacaq. Beləliklə, dəyişən iqlimə uyğunlaşmaq üçün davamlı qida və su sistemləri təşkil etməliyik. Bu, daha çox maliyyə, tədqiqat və yeni sistemlərin tətbiqi anlamına gəlir".

Kənd təsərrüfatı naziri Məcnun Məmmədov su sistemlərinin iqlim dəyişmələri ilə mübarizədə çox vacib rol oynadığını, ona görə də Azərbaycanda hazırda irriqasiya sistemlərinin müasirləşdirildiyini, daha səmərəli su idarəetmə sistemlərinin yaradıldığını və yeni bərpaolunan enerji resurslarına sərmayələr yatırıldığını vurğulayıb. O, noyabr ayında keçiriləcək COP29 çərçivəsində qida, su və kənd təsərrüfatı sahələrinin əsas müzakirə mövzuları olacağını bildirib: "Azərbaycanda birbaşa olaraq kənd təsərrüfatı sektorunda adaptasiya tədbirlərini təşviq etmək üçün "Harmoniya" təşəbbüsü gündəmdədir. Bu təşəbbüs çərçivəsində əsas məqsədlərimizdən biri odur ki, kənd yerlərində yaşayan icmaları səlahiyyətləndirək və onları iqlim dəyişmələrinin təsirinə daha dayanıqlı hala gətirək. Bunun üçün də beynəlxalq tərəfdaşlığa, müxtəlif banklarla əməkdaşlığa ehtiyacımız var. Eyni zamanda yerli fermerləri iqlim dəyişmələrinə uyğunlaşa bilən texnologiyalarla təmin etmək lazımdır. Məqsədimiz təcrübə mübadiləsi aparmaq, sinerji sahələrini müəyyənləşdirmək, boşluqları aşkar etmək, habelə iqlimlə bağlı maliyyə resurslarına çıxış əldə edərək bu prosesdə qadın və gənclərin rolunu artırmaqdan ibarətdir". COP29 Sədrliyinin Fəaliyyət Gündəliyi, Su ilə bağlı mərkəzin nümayəndəsi Kəmalə Hüseynli-Abışova qeyd edib ki, iqlim dəyişmələrinin təsirindən dünyada su ehtiyatlarının həcmi gündən-günə azalır. Suyun qorunması üçün tədbirlərin vacibliyini vurğulayan spiker COP29 Sədrliyi tərəfindən iqlim fəaliyyəti naminə su təşəbbüsünün irəli sürüldüyünü açıqlayıb. "Xəzər dənizinin suyunun azalmasının şahidi oluruq. Bu, kifayət qədər narahatlıq yaradır. Biz COP29-da su mövzusu ilə bağlı ardıcıl müzakirələrin aparılmasının tərəfdarıyıq. Düşünürük ki, dünyanın bir nömrəli müzakirə platformasında su mövzusu vacib yer tutmalıdır. Noyabrın 21-də su ilə əlaqədar tədbir təşkil olunacaq. Burada, həm də təbiət və biomüxtəlifliyin mühafizəsi ilə bağlı müzakirələr aparılacaq".

Beynəlxalq Kənd Təsərrüfatı Tədqiqat Mərkəzləri Konsorsiumunun (CGIAR) icraçı direktoru İsmahane Elouafinin sözlərinə əsasən iqlim dəyişmələri təbii ehtiyatların tükənməsinə, ərzaq təhlükəsizliyinə ciddi təsir göstərir. Hazırda dünyanın 10 faizi aclıqla mübarizə aparır və havanın temperaturu 4 dərəcə artarsa, 2 milyard insan aclıqla qarşılaşa bilər.

Su çatızmazlığı 2050-ci ilə qədər daha kəskin olacaq. Suyun əsasən kənd təsərrüfatında istifadə olunmasını qeyd etmək vacibdir. Bu səbəbdən su çatızmazlığı problemi xüsusilə kənd təsərrüfatına təsir edəcək, çünki həmin sahə suvarmadan asılıdır. İqlim dəyişmələri qlobal su paylanmasının dəyişməsinə səbəb olub. Odur ki, kənd təsərrüfatında suyun istifadəsi ədalətli şəkildə olmalıdır. Azərbaycan iqlim dəyişmələri gündəliyi və onunla mübarizədə ən öndə olan ölkələr sırasındadır: "Azərbaycanı və COP29 Sədrliyini qida, su, torpaq sistemlərinə yeni yanaşmaların ortaya qoyulmasında böyük səylər göstərdiyinə görə təbrik edirəm".

Tədbir çərçivəsində "Ədalətli keçid tərəfdaşlığı və investisiyaların stimullaşdırılması" mövzusunda dəyirmi masa təşkil olunub. COP29-un İqlim üzrə yüksək səviyyəli çempionu Nigar Arpadarai dəyirmi masada çıxış edərək deyib ki, COP29 Sədrliyi kimi Azərbaycanın gələcəyə olan baxışı iddiaların gücləndirilməsidir. Onun sözlərinə görə, COP29-un əsas mövzusu maliyyə olacaq: "Düşünürəm ki, "yaşıl enerji"yə keçid ədalətli olmalıdır. COP29 Sədrliyi olaraq 14 təşəbbüs irəli sürmüşük. Həmin təşəbbüslər bütün sahələri əhatə etmək üçün formalaşdırılıb. Yerli çempion kimi fəaliyyətim qeyri-dövlət aktorlarını, yəni özəl sektoru bura cəlb etməkdir".

Azərbaycan energetika nazirinin müavini, COP29 Azərbaycan üzrə baş icraçı direktor (CEO) Elnur Soltanov bildirib ki, kiçik ada dövlətləri artıq iqlim təzyiqləri altında yox olmağa başlayırlar. Kompensasiya üçün dünya ictimaiyyətinə müraciət edən ölkələr var. Misal üçün Barbarosun baş naziri kompensasiya üçün çağırış edib. Ada ölkələri keçid üçün kompensasiya tələb edirlər. Ədalətli keçid deyəndə müxtəlif bacarıqları, ümumi differensial cavab tədbirlərini nəzərdə tuturuq. Öhdəliklər eyni olmadıqda nələr edilməlidir, bu araşdırılmalıdır. Keçidə görə kənarda qalanlar həssas qruplardır. "Yaşıl dünya naminə ədalətli keçid" şüarına əsasən həmin həssas qruplar da nəzərə alınmalıdır.

COP29-un CEO-su vurğulayıb ki, dünyanın iqtisadi infrastrukturu neft və qaz ehtiyatları üzərində qurulub "Yaşıl enerji" inqilabının astanasındayıq demək bir az çətindir, yeni "yaşıl enerji" dəhlizləri yaradırıq. Azərbaycanın üstünlüyü "yaşıl keçidi" təmin etmək üçün liderlik, etimad və təcrübədir.

SOCAR-ın vitse-prezidenti Əfqan İsayev ədalətli keçidə verilən töhfələrin maksimum səviyyəyə çatdırılması imkanları barədə danışıb. O bildirib ki, Azərbaycan yanacaq infrastrukturu, şəbəkə bağlantıları və enerji istehsalı sahələrində transsərhəd əməkdaşlıq imkanlarını yaratmaq üçün əhəmiyyətli addımlar atır.

"PAŞA Holdinq"in Strateji idarəetmə departamentinin direktoru Teymur Hüseynovun sözlərinə əsasən yüksəkkarbonlu enerji texnologiyalarına cəlb edilmiş işçi qüvvəsinin bu keçidin reallaşdırılması prosesinə daxil edilməsi vacibdir. O, həmçinin aşağıkarbonlu enerji texnologiyalarının tətbiqini sürətləndirməyin yolları barədə məlumat verib.

Özəl Sektorun İnkişafı üzrə İslam Korporasiyasının İnkişaf Səmərəliliyi İdarəsinin baş meneceri Mohammed Alyami bəyan edib ki, iqlim dəyişmələri fonunda maliyyə problem olaraq qalmaqdadır. "Elə məsələlər var ki, enerji keçidi üçün düzgün texnologiyaların tətbiqi və maliyyəni cəlb etmək səylərinə əngəl törədir. Düşünürəm ki, bütün bunlar ətraflı şəkildə müzakirə olunarsa, mütləq öz həllini tapa bilər".

Dünya Bankının (DB) enerji məsələləri üzrə baş mütəxəssisi Florian Kitt vurğulayıb ki, enerji şəbəkəsi keçidinin dayaq sütunudur: "Enerji dəyəri zəncirinin şəbəkə hissəsinə investisiya yatırmadan qarşıya qoyulan məqsədə çatmaq sadəcə olaraq mümkün deyil. Bu problemlə bağlı təcili tədbirlər görülməlidir".

Daha sonra "Baker Hughes"in birinci vitse-prezidenti Alessandro Bresciani, "AzərEnerji" ASC-nin prezidentinin strateji layihələr üzrə müşaviri Adil Əliyev, "Petronas" şirkətinin birinci vitse-prezidenti Siti Rafidah, "Masdar Azərbaycan"ın direktoru Murad Sadıxov mövzu ilə bağlı fikirlərini bölüşüblər.